*5. İnt. Ev.*

Süfrə açılıb. Əli yemək yeyir. Stolun üstündə çörək, ayran, göyərti və s. Kamera əlinin üzünü yaxından göstərir. Yenə fikirlidir. Mətbəxdən yenə qab-qacaq səsi gəlir. Məryəm yemək gətirib özü də oturur. Bir müddət sakitcə yeyirlər.

Məryəm: - Nə vaxt zəng vurmuşdu?

Əli ayran stəkanını başına çəkir, boşqabı kənara qoyur.

Əli: - Günorta. Şəhərə adam aparırdım. Zəng vurdu, götürə bilmədim. Sonra yenə yığdı. Maşını saxlayıb danışdım.

Məryəm: - Elə dedi ki, gələ bilmirəm?

Əli təsdiq mənasında başını tərpədir. Köks ötürür. Stolun üstündəki siqaret qutusunu götürür, birini çıxarır.

Məryəm: - Heç olmasa, açıq da deməsən, nəsə eşitdirəydin də. Bəlkə özü başa düşəcəkdi? Ya da açıq-açığına deyərdin. Burda nə var ki?

Əli: - Yox! Muradı incidə bilmərəm. Sentyabrda, ya oktyabrda gələcək də. Mənə görə narahat olar, utanar ki, qardaşımdan beş-altı aylıq borc aldım, onu da... onu dirənib ki, ver, mən ziyarətə gedim. Səncə, bu yaxşı çıxır?

Məryəm: - Görürsən, ürəyimə damıb ki, Murad bizdən xəbərsiz gələcək.

Əli: - Yox. Elə eləməz.

Məryəm: - Bəs nə fikirləşirsən?

Əli: - Bilmirəm necə edim.

Məryəm: - Əli, qurban olum. İkisini də sən deyirsən. Nə gecəngündüzün var, nə də ki, istəməyə üzün gəlir. Sənə dedim, qoy bu il qalsın də, nə məcburdur? Hə, Əli, başına dönüm, nə məcburdur? Ziyarətə məcbur getməzlər axı. Sən bunu bilirsən.

Əli: - Bilirəm. Bilirrəəm. (Əsəbi).

Məryəm: - Onda niyə narahatsan? Dünən də sayıqlayırdın e, Əli, sayaqlayırdın. Xəbərin var?

Əli: - Necə yəni sayıqlayırdın?

Məryəm: - Sayıqlayırdın də, sayaqlayırdın. Heç nə başa düşmədim. Bircə Hüseynin adını başa düşə bildim. Nə görürdün yuxuda?

Əli susur. Gözünü yumur.

Məryəm: - Görürdün ki, Hüseynə nəsə olub hə?

Cavab vermir.

Məryəm: - Qorxursan ki, Hüseynə nəsə olar hə?

Əli gözlərini süfrəyə dikib başını tərpədir.

Məryəm: - Belə şeyləri başından çıxar. Heç nə olmaz, narahat olma. Heç nə olmaz Hüseynə. Sən ki, belə şeylərə görə camaata gülürdün? İndi noldu, Əli?

Əli: - Elə dərd də budur dəə ...

Məryəm: - Əli, belə şeylər küfrdür, haramdır. Yoxsa bilmirsən, yoxsa sənə mən öyrədim?

Əli: - Bilirəm. O gün sən məni yuxudan durğuzanda...

Məryəm: - (Sözünü kəsir) Hə, yuxu görürdün?

Əli: - Yuxuma bir ağsaçlı adam gəmişdi. Dedi, mən peyğəmbərəm. Dedi... sən bu il ziyarətə get.

Məryəm: - Offff... Əli... (Qeyzlənir, əsəbi. Səsini qaldırır) Bəsdir, qurban olum. Sən belə deyildin axı, nə vaxtdan yuxuda hər gördüyün adamı peyğəmbər bilirsən?

Əli: - Sənin yadına gəlir ki, biz niyyət eləmişdik... uşaq sağ-salamat olsun, ...

Məryəm: - (Səsini qaldırır) Yox, yadıma heç nə gəlmir. Biz heç vaxt belə niyyət etməmişik ki, uşaq məktəbə getsin, sən ziyarətə gedəsən.

Əli: - Bilirəm ee...

Məryəm: - Bilmirsən, Əli... (Məryəmin gözü dolur). Ortalıqda heç nə yoxdur, sən özünə də əziyyət verirsən, mənə də.

Əli: - Sənə bir şey demək istəyirəm.

Məryəm yanağını silib gözünü ona zilləyir.

Əli bir müddət susur.

Əli: - Mən maşını satmaq istəyirəm.

Məryəm: - ... (Susur. Udqunur)

Əli: - Murad gələn kimi pulu versin, təzəsini alaram.

Məryəm: - Əli... Necə yəni ... maşını satmaq istəyirəm?

Əli: - Satacam də, satacam. Gələn bazar aparacam. Nəcəfə də deyərəm, bir yerdə gedərik, köməkləşib satarıq. Nə çox maşın. Alaram də, Murad gələr, alaram. Lap yaxşısını alaram.

*6. Epizod. Nat. Günorta.*

Əli üstündə "Çap xidmətləri" yazılan dükandan çıxır. Maşına yaxınlaşır, əlindəki kağızı maşının şüşəsinə yapışdırır. Kamera kağızı göstərir: - "Opel vectra. İl: - 1998. Motor 1,8. Avtomat karopka. Qiymət 4000 man". Əli maşına oturub sürüb uzaqlaşır.

*7. Epizod. Nat. Günorta.*

Hüseyn məktəbdən qayıdır. Yolda hoppanır, qarşısına çıxan plastik şirə qablarına, siqaret qutularına təpik vurur, öz-özünə nəsə oxuyur. Darvazaların açıb içəri girir. Maşına yaxınlaşır. Şüşədəki satış elanını görür. Hüseynin üzündə olan sevinc hissi bir anlıq çəkilib gedir, udqunur. Key-key maşına baxır. Başını qaldırıb evin pəncərəsinə baxır. Məryəm pəncərənin ağzında, bir qədər içəridə dayanıb. O, uşağı görür. Əli də arvadının yanına gəlir. Heykəl kimi dayanıb Hüseynə baxırlar.

*8. Epizod. İnt. Axşam.*

Əlinin evi. Əli namaz qılır. Namazını qılıb qurtarır, canamazı yığışdırır. O biri otağa keçir. Məryəm oxlovla kündə yayır, stolun üstündə bişməmiş qutablar görünür.

Əli: - Hüseyn yatıb?

Məryəm: - Yox, səhərdən girib otağa çıxmır.

Əli: - Necə yəni çıxmır?

Məryəm: - Məktəbə də getmədi. Nə soruşuram, cavab vermir.

Əli başını aşağı əyib köks ötürür.

Məryəm: - Səhərdən ağzına bir tikə çörək salmayıb. Ac-acına uzanıb orda.

Əli otağın qapısına yaxınlaşır, onu açır.

Əli: - Hüseyn...

Sükut.

Əli: - Hüseyn...

Sükut.

Əli: - Hüseyn, sənnənəm. Eşidirsən məni?

Sükut.

Əli: - Oğlum, qalx ayağa, qalx, qutab yeyək.

Hüseyn yenə cavab vermir. Əli onun otağına keçir. Otaq yarımqaranlıqdır. Yatağına yaxınlaşır. Başını sığallayır.

Əli: - Ağıllı oğlum, qalx ayağa. Qalx, yemək yeyək. Ana bizə qutab bişirib.

Hüseyn yenə cavab vermir.

Əli: - Yaxşı, mən gedirəm, sən də gəl yaxşı? Ata sənə daha yaxşı maşın alacaq. Eşidirsən, atanın balası? Bu köhnəlib, sürə bilmirəm. Atanı incidir e, yolda qoyur. Eşidirsən, oğlum? Deyirəm, bu maşın atanı incidir, yolda qoyur. Ona heç kim minmir, hamı bahalı maşınlara minir ki, rahat getsin. Mən bunu satım, sənə yaxşısını alacam. Söz verirəm sənə. Yaxşı, oğlum? Qalx, qalx ayağa. Qutablar soyudu ee, qalx...

Hüseyndən səs-səmir gəlmir. Əli otaqdan çıxanda bərkdən: -

Əli: - Söz verirəm, Hüseyn, sənə yaxşı maşın alacam. Onun kondisioneri də işləyəcək. Bu maşın çox köhnəlib.

*9. Epizod. Nat. Sübh tezdən.*

Əli həyətə düşür, maşına yaxınlaşanda görür ki, elan kağızı şüşədə yoxdur. Maşının ətrafına baxır. Yerdə kağız parçaları var. Əli maşını işə salıb həyətdən çıxanda Hüseyn pəncərədən gizlicə ona baxır. Ağlayır.

*9. Epizod. İnt.*

Əli maşınla qayıdır. Maşının üstündə yenidən "Satılır" elanı görünür. Radioda xəbərlər oxunur. Həcclə bağlı xəbər başlayanda Əli siqaret yandırır. "Həcc ziyarətinə sənəd qəbulu davam edir. Məlumata görə, zəvvarlardan xarici pasport, qeydiyyatda olduğu ərazi poliklinikasından sağlamlıq haqqında arayış və 4 ədəd fotoşəkil tələb olunur".

Əli maşının çəkməcəsini (Bardoçok) açır, əyilib xarici pasportu ordan çıxarır, baxır, yerinə qoyur.

Əli: - Deməli, belə... Sağlamlıq haqqında arayış... (Öz-özünə) Bu da dörd dənə şəkil.

Maşın yerindən tərpənir. Qarşıda ikimərtəbəli bina görünür. Əli maşını onun qabağında saxlayır. Maşından düşüb xəstəxanaya girir. İki nəfər maşına yaxınlaşıb elanı oxuyur. Öz aralarında nə isə danışırlar, maşının içinə boylanırlar, telefon nömrəsini götürürlər. Əli xəstəxanadan çıxır, əlində kağız var. Xəstəxananın yanında üstünə "Foto" yazılan kiçik dükana girir. Şəkil çəkdirir. Ordan çıxır maşına oturur. Maşının günlüyünü aşağı salır, sağlamlıq kağızını və fotoları ora qoyur. Sürüb uzaqlaşır. Kamera maşını uzaqdan göstərir.

*10. Epizod. Əlinin evi.*

Hüseyn tez-tez pəncərədən boylanır. Sonra həyətə düşür, darvazadan çıxıb küçəyə boylanır. Darvazanın ağzındakı daşın üstündə oturur, gözlərini küçəyə dikir. Küçədən maşınlar keçir, Hüseyn bir-bir o maşınları ötürür, arxaları ilə baxır.

*11. Epizod. Günorta.*

Uzaq plan. Əlinin maşını. Zəng gəlir. Ekranda Nəcəf yazılıb. Əli cavab verir.

Əli: - Eşidirəm, Nəcəf... Salam Əleyküm qardaş, salam əleyküm... Allah razı olsun Nəcəf... Hə, bazardan qayıdıram... Alo... Nəcəf eşidirəm səni... Deyirəm, bazardan qayıdıram. Yox, yox, narahat olma, çətinliyim olmadı. Heç nə... (Siqaret yandırır) Yox, sata bilmədim... Həə... Maşın çox idi, qiymətlər də düşüb. Keçən bazar da belə oldu. Yox... Baxan çox oldu. Bir nəfər nömrəmi götürdü. Dedi, almaq istəsəm, zəng vuracam. (Kənardan görünüş. Maşın sola burulur) Həə... Görək də, Nəcəf, görək nolur. Bu gün bəlkə zəng vurdu. Alan adama oxşayırdı. Yaxşı. Narahat olma. Sağ ol Nəcəf. Allah amanında.

Maşın qəsəbədən keçib gedir.

*12. Epizod. Əlinin evi. Günorta.*

Məryəm pəncərədən boylanıb Hüseyni çağırır.

Məryəm: - Hüseyn...

Cavab yoxdu.

Məryəm: - Ay Hüseyn... Hüseyn...

Sükut.

Məryəm tələsik həyətə düşüb Hüseyni axtarır. Həyəcanlıdır. Qorxur. Özünü darvazanın yanına çatdırır, qapını açıb küçəyə boylanır. Hüseyn küçə ilə gedir, yavaş-yavaş uzaqlaşır.

Məryəm: - Hüseyn... Hüseyn, hara gedirsən?

Hüseyn çevrilib ona baxır. Sonra yoluna davam edir. Məryəm onun arxasınca qaçır, özünü yetirib oğlunun əlindən tutur. Qarşısında çökür, onun üz gözünü oxşayır.

Məryəm: - Qurban olum, hara gedirsən?

Hüseyn yenə cavab vermir.

Məryəm: - Ata bir azdan gələcək. Gedək evə...

Məryəm Hüseynin qolundan tutub arxasınca evə tərəf çəkir. Uzaq plan. Hüseyn gəlmək istəmir, anası onu arxasınca aparır.

*13. Epizod. Günorta.*

Əliyə zəng gəlir. Cavab verir.

Əli: - Alo...

Məryəmin səsi: - Əli, neynirsən? Necə oldu?

Əli: - Evə gəlirəm...

Məryəm: - Maşını... (Məryəmin sanki səsi qırılır) sata bildin?

Əli: - Yox. Bir nəfər zəng vurmalıdır. Gəlirəm evə, narahat olma.

Məryəm: - Həə... yaxşı...

Əli: - Hüseyn neynir?

Məryəm: - Hüseyn çıxıb gedirdi ki, atamı axtarmağa gedirəm. Evə güclə gətirmişəm.

Əli: - (Sükut). Yaxşı, gəlirəm.

Məryəm: - Alo, Əli...

Əli: - Həə, eşidirəm...

Məryəm: - Gələndə alça al, Hüseyn alça istədi.

Əli: - Yaxşı, yaxşı, alaram...

*14. Epizod. Nat. Günorta.*

Əli maşını saxlayır. Ağacın altında bir qoca kişi oturub mer-meyvə, göy-göyərti satır. Əli kişidən alça alır, maşına oturur. Alça torbasını iki oturacağın arasına qoyur. Maşın tərpənir. Əli alçadan birini götürüb ləzzətlə yeyir. Turşluqdan gözləri qıyılır, ağız-burnu əyilir. Birini də götürüb yeyir, sonra birini də yeyir.

Qarşıdakı yolda bir uşaq, bir yaşlı qadın dayanıb. Əlinin maşını yaxınlaşır. Qadın əl edir. Əli maşını saxlayır, şüşəni salır.

Qadın: - Salam, oğlum...

Əli: - Salam əleyküm...

Qadın: - Məktəbin yanına gedirik. Yolunuz oradırsa, bizi də aparın...

Əli: - Əyləşin, xala, əyləşin...

Qadın və uşaq maşına oturur. Yol gedirlər. Əlinin telefonu zəng çalır. Əli sanki diksinən kimi olur. Gah yola baxır, gah telefona. Gərgindir. Qərar verə bilmir ki, cavab versin, ya yox. Əlini telefona aparır ki, açsın. Birdən əlini saxlayır. Zəng kəsilir.

Sükut. Uşaq alçalara baxır. Nənəsinə işarə edir.

Uşaq: - Əmi, mən o alçadan istəyirəm ee...

Əli torbanı bir əli ilə açır, uşağa alça verir.

Əli: - Sənin adın nədir?

Uşaq: - Adım Orxandır.

Əli: - Hə... Orxan... Orxan, neçədə oxuyursan?

Qadın: - Bu il dördüncü sinfi bitirir, əmisi.

Əli: - Həə... Mənim də sənin boyda oğlum var. O da bu il dördüncü sinifi bitirir.

Bu vaxt Əliyə yenə zəng gəlir. Yenə qərarsızdır. Gərginləşir. Əlini telefona aparır. Barmağını yaşıl düyməyə qoyur, sonra saxlayır. Zəng kəsilir.

Orxan: - Sənin oğlunun adı nədir?

Əli: - Adı Hüseyndir...

Orxan: - Hüseyn?

Orxan qadının üzünə baxır. Qadın çantasından zərf çıxarır. Əli güzgüdən qadına baxır. Onların baxışları toqquşur.

*15. Epizod. Əli darvazanı açır.*

Maşını həyətə salanda ona yenə zəng gəlir. Telefonu söndürür. Maşını həyətə salır. Kamera uzaqdan göstərir ki, maşında uşaq və qadın var. (Bu, göstərilməyə də bilər) Əli maşının günlüyündən sağlamlıq kağızını götürüb cırmaq istəyəndə əlinə başqa kağız keçir. Kağızı açır. İçində Hüseynin şəkli var. Kağızı oxuyur: - (Kadrarxası səs) "Adını bilmədiyim əmi. Salam. Mənim adım Hüseyndir. 10 yaşım var. Biz Bakıda yaşayırıq. Ümid qəsəbəsində. Atam, anam, bir də mənəm. Atam maşını ziyarətə getmək üçün satıb. Mən istəmirdim. Anam da istəmirdi. Amma atam qorxur ki, bu il ziyarətə getməsə, mənə nə isə olar. Əmi, atam məni çox istəyir. Söz verib ki, Murad əmim gələndə bizə yaxşı maşın alacaq. Amma mən başqa maşın istəmirəm. Ona görə atamı da, anamı da danışdırmıram. Əmi, sən heç vaxt atam kimi edib oğlunu incitmə, yaxşı?".

Əli sarsılır. Məktubu və sağlamlıq kağızını ovcundan sıxır. Gözlərini yumur.

Orxan: - Əmi, sənə nə oldu?

Əli cavab vermir.

Orxan: - Əmi düşmürük? Hüseyn evdə yoxdu?

Əli: - Evdədir, oğlum, düşək...

Orxan: - Nənə, gəl...

Düşürlər. Orxan düşən kimi Hüseyni çağırır. Hüseyn pəncərədən görünür. Gülümsəyir.

Orxan: - Hüseyn... Sən yazmışdın, mən də gəldim...

Hüseyn anasını çağırır. İkisi də pəncərədə görünür. Hüseyn gülən də Əli də bərkdən, ürəkdən gülür. Alça torbasını maşından götürüb birini Hüseynə atır. Sonra yenə birini, yenə birini atır. Uzaq plan. Orxan da Əliyə qoşulub alça atır. Hər ikisi bərkdən gülə-gülə yenə alça atırlar. Hüseyn ağzını-burnunu şüşəyə söykəyir. Qırmızı, göy alçalar pəncərə şüşəsinə dəyir, dəyir, dəyir...

*Son...*

İyun, 2016